50 ölkədən 2000-ə yaxın idmançının iştirak etdiyi taekvondo üzrə klublararası Avropa çempionatında "Təhsil" RİM-in 4 idmançısı şəxsi hesabda fərqləniblər. Belə ki, Mərkəzin yetirməsi İlham Əliyev 45 kiloqram çəki dərəcəsində birinci yeri tutaraq qızıl medal qazanıb. 44 kiloqram çəki dərəcəsində Təhminə Hüseynova II yeri, 48 kiloqram çəki dərəcəsində Rəvan Hüseynov və 59 kiloqram çəki dərəcəsində Rəfaello Hüseynova III yeri tutublar. Ümumi nəticələrə əsasən, "Təhsil" RİM-in yığması komanda hesabında III yerə layiq görülüb.

Azərbaycan idmançıları taekvondo üzrə Türkiyə-Open Beynəlxalq Turnirində də uğurla mübarizə aparıblar. Bu yarışda İlham Əliyev 45 kiloqram çəki dərəcəsində birinci yeri tutaraq fəxri kürsünün ilk pilləsinə yüksəlib.